# PAULUN SALONİKLİLƏRƏ İKİNCİ MƏKTUBU

## GİRİŞ

İsa Məsihin ikinci gəlişi ilə əlaqədar Salonik imanlı cəmiyyətində yenə də narahatlıqlar davam edirdi. Saloniklilərdə belə bir fikir var idi ki, Rəbbin günü artıq gəlib.

Paul bu fikrə düzgün istiqamət verərək yazır ki, Məsihin zühurundan öncə şər və pislik kulminasiya nöqtəsinə çatacaq. Bu, müəmmalı olan şəxsin, «həlak edilməli qanunsuz adam»ın (2:3) rəhbərliyi altında baş verəcək. Bu şəxs Məsihin əleyhdarı olacaq.

Həvari vurğulayır ki, imanlılar əzab-əziyyət və çətinliklərə baxmayaraq, imanda möhkəm durmalı, özlərini dolandırmaq üçün Paul və onun əməkdaşları kimi işləyib yaxşı əməllərini davam etdirməlidirlər.

**Məktubun məzmunu:**

1:1-12 Salamlar və minnətdarlıq
2:1-17 Məsihin zühuruna aid təlimat
3:1-15 Məsihçi davranışına aid öyüd-nəsihət
3:16-18 Xudahafizləşmə

1 *Paul, Sila və Timoteydən Atamız Allah və Rəbb
İsa Məsihdə olan Saloniklilər cəmiyyətinə salam!
2 Atamız Allahdan və Rəbb İsa Məsihdən sizə lütf və
sülh olsun!

---

* **1:1** Həv. 17:1

### *Hökm günü*

3 Qardaşlar, sizin üçün həmişə Allaha şükür
etməliyik və belə etməyimiz yerinə düşər,
çünki imanınız artdıqca artır və hamınızın bir-
birinizə olan məhəbbəti çoxalır. 4 Bunun üçün
tab gətirdiyiniz bütün təqiblərə, əziyyətlər
zamanı dözümünüzə və imanınıza görə Allahın
cəmiyyətlərində sizinlə özümüz də fəxr edirik.

5 Bu şeylər Allahın ədalətli hökmünün əlamətidir
ki, nəticədə uğrunda indi əzab çəkdiyiniz Allahın
Padşahlığına layiq sayılasınız. 6 Çünki Allahın
hüzurunda haqq olan işdir ki, sizə əziyyət verənlərə
əziyyət, 7 əziyyət çəkən sizlərə isə bunun əvəzində
bizimlə birlikdə rahatlıq veriləcək. Bu, Rəbb İsanın
qüdrətli mələkləri ilə od-alov içərisində göydən
zühur etdiyi zaman olacaq. 8 O zaman Rəbbimiz
İsa Allahı tanımayanlardan və Özü barədə olan
Müjdəyə itaət etməyənlərdən qisas alacaq. 9 Onlara
Rəbbin hüzurundan və qüdrətinin izzətindən
məhrum qalıb əbədi olaraq məhv edilmə cəzası
veriləcək. 10 Bunlar Rəbbin Öz müqəddəsləri
arasında izzət qazanmaq və bütün imanlıları
heyrətə gətirmək üçün gəldiyi gün baş verəcək.
Siz də belə imanlılardansınız, çünki etdiyimiz
şəhadətə inandınız. 11 Buna görə sizin üçün daim
dua edirik ki, Allahımız sizi Öz çağırışına layiq
görsün, hər yaxşı niyyətinizi və imandan asılı hər
əməlinizi Öz qüdrəti ilə yerinə yetirsin. 12 Belə
ki Allahımızın və Rəbb İsa Məsihin lütfünə görə
Rəbbimiz İsanın adı sizdə izzət qazansın və siz də
Onda izzət qazanasınız.

# 2

## *Qanunsuz adam*

1 *Rəbbimiz İsa Məsihin zühuruna və bizim
Onunla birlikdə olmaq üçün toplaşmağımıza
gəlincə, qardaşlar, sizdən xahiş edirik: 2 qoy
«Rəbbin günü çatmışdır» deyə iddia edən hər
hansı bir ruh, bir söz yaxud guya bizdən gələn
bir məktub sizi tez ağıldan çıxarıb təlaşa salmasın.
3 Heç kim sizi heç bir şəkildə aldatmasın. Çünki
əvvəl üsyan qaldırılaraq həlak edilməli qanunsuz
adam* meydana çıxmayınca o gün gəlməyəcək. 4 *O
adam, allah adlanan yaxud səcdə edilən hər şeyə
qarşı çıxaraq özünü hamıdan üstün tutacaq. Belə ki
Allahın məbədində əyləşib özünün Allah olduğunu
elan edəcək.
5 Hələ yanınızda olarkən bunları sizə söylədiyim
yadınızda deyilmi? 6 Bəli, vaxtı çatanda meydana
çıxsın deyə indi o adama nəyin mane olduğunu
bilirsiniz. 7 Hələ indi də qanunsuzluğun sirli gücü
fəaliyyətdədir. Ancaq hələlik həmin gücə mane
olan şəxs aradan qalxanadək belə olacaq. 8 *Sonra
həmin qanunsuz adam meydana çıxacaq və Rəbb
İsa onu ağzından çıxan nəfəsi ilə öldürəcək, Öz
zühurunun əzəməti ilə məhv edəcək. 9 *Bu qanun-
suz adam Şeytanın fəaliyyətinə əsaslanaraq hər cür
yalan möcüzə, əlamət və xariqələrlə 10 və həmçinin
hər cür haqsızlığın hiyləsi ilə gələcək ki, həqiqəti
sevərək xilas olmaq əvəzinə, bunu rədd etdikləri
üçün həlak olacaq insanları aldatsın. 11 Buna görə

---

* **2:1** 1Sal. 4:15-17 * **2:3** Qanunsuz adam – bəzi əlyazmalarda günah adamı. * **2:4** Yez. 28:2; Dan. 11:36 * **2:8** Yeş. 11:4 * **2:9** Mat. 24:24

Allah onların üzərinə aldadıcı bir qüvvə göndərir
ki, yalana inansınlar. 12 Belə ki həqiqətə inan-
mayıb haqsızlıq etməkdən zövq alanların hamısı
mühakimə olunsun.

### *Möhkəm dayanın*

13 Bizsə, ey Rəbbin sevdiyi qardaşlar, sizin
üçün həmişə Allaha şükür etməliyik. Çünki Allah
başlanğıcdan sizi Ruhun təqdisi və həqiqətə iman
vasitəsilə xilas üçün seçdi. 14 Rəbbimiz İsa Məsihin
izzətinə nail olmağınız üçün O bizim yaydığımız
Müjdə ilə sizi bu xilasa çağırdı. 15 Beləliklə,
qardaşlar, möhkəm dayanın və sözümüz yaxud
məktubumuz vasitəsilə öyrəndiyiniz təlimlərə
bağlı qalın.

16 Rəbbimiz İsa Məsihin Özü və bizi sevib lütfü
ilə əbədi cəsarət və xeyirli ümid verən Atamız Al-
lah 17 sizi ürəkləndirsin, hər yaxşı söz və əməldə
möhkəmləndirsin.

# 3

### *Bizim üçün dua edin*

1 Nəhayət, qardaşlar, bizim üçün dua edin ki,
Rəbbin kəlamı aranızda olduğu kimi sürətlə yayılıb
izzət qazansın, 2 pis və şər adamlardan xilas olaq.
Çünki iman hamıya məxsus deyil. 3 Amma Rəbb
etibarlıdır. O sizi möhkəmləndirib şər olandan
qoruyacaq. 4 Biz də Rəbbə güvənərək sizdən
arxayınıq ki, verdiyimiz əmrlərə əməl edirsiniz
və edəcəksiniz. 5 Qoy Rəbb ürəklərinizi Allahın
məhəbbətinə və Məsihin dözümünə yönəltsin.

### *Dolanışığınızı zəhmətinizlə qurun*

6 Ey qardaşlar, Rəbbimiz İsa Məsihin adı ilə
sizə əmr veririk ki, bizdən qəbul etdiyi təlimə
görə yaşamayan, avara həyat sürən hər bir bacı-
qardaşdan uzaqlaşın. 7 Bizlərdən necə nümunə
götürmək lazım olduğunu özünüz də bilirsiniz.
Çünki yanınızda olarkən avara dolanmadıq, 8 heç
kimin çörəyini müftə yemədik. Əksinə, gecə-gündüz
əmək və zəhmət çəkərək işlədik ki, heç birinizə yük
olmayaq. 9 Bunu ixtiyarımız çatmadığına görə deyil,
sizə nümunəvi yol göstərərək bu yolla getməyiniz
üçün etdik. 10 Hətta biz sizinlə olarkən sizə bu əmri
verdik: kim işləmək istəmirsə, yemək də yeməsin.
11 Eşitmişik ki, sizlərdən bəzisi avara həyat sürür;
heç bir iş görmədikləri halda hər şeyə qarışırlar.
12 Belələrinə Rəbb İsa Məsih naminə əmr verib
xəbərdarlıq edirik ki, sakitcə işləyib öz çörəklərini
yesinlər. 13 Sizsə, qardaşlar, yaxşılıq etməkdən
yorulmayın.

14 Əgər kimsə bu məktubdakı sözlərimizə qulaq
asmaq istəməzsə, onu nəzərdə saxlayın və onunla
əlaqəni kəsin ki, utansın. 15 Yenə də onu düşmən
sanmayın, bir qardaş kimi ona nəsihət verin.

### *Salam göndərmə*

16 Sülh qaynağı olan Rəbbin Özü isə sizə hər za-
man və hər vəziyyətdə sülh versin! Rəbb hamınıza
yar olsun!

17 Mən Paul salamı sizə öz əlimlə yazıram. Bunu
hər məktubumda xüsusi bir işarə kimi yazıram.
18 Rəbbimiz İsa Məsihin lütfü hamınıza yar olsun!

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http:// creativecommons.org/ licenses/ by-nc-nd/ 3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.

You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:

You must give Attribution to the work.

You do not sell this work for a profit.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Permissions beyond the scope of this license may be available if you contact us with your request.

This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.

You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:

You include the above copyright and source information.

You do not sell this work for a profit.

You do not change any of the words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

---

PDF generated using Haiola and XeLaTeX on 11 Nov 2022 from source files dated 9 Oct 2020

5d1dd449-0589-5c75-ab0e-6b96786f2985